## BİZİM ŞÜAR:
## "NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## VƏTƏNPƏRVƏR DEYİMLƏR...

Əsl yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın.

**M.F.Axundzadə**

Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

**N.Nərimanov**

Elə cinayət var ki, bağışlanmır, bu, vətənə xəyanətdir.

**Ə.H.Bəhmənyar**

Öz Vətənini sevmək – bəşəriyyətin ideallarının həyata keçirilməsini ürəkdən arzu etmək və gücün çatana qədər buna kömək etmək deməkdir.

**V.Q.Belinski**

İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür.

**N.Q.Çernişevski**

Namuslu insan olmaq istəyirsənsə, ömrünün mənasını Vətənə xidmətdə gör.

**D.İ.Fonvizin**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Məhəmməd Abbasova **əmisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti mayor Elşən Əliyevə **bacısının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Elməddin Cəbiyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Xəyyam İbrahimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## HƏKİM MƏSLƏHƏTİ



# DİARREYA ƏLAMƏTLİ KƏSKİN BAĞIRSAQ İNFEKSİYALARININ PROFİLAKTİKASI

Diarreya (ishal) – bağırsaq peristaltikasının güclənməsi (bağırsaqların hərəki funksiyasının pozulması), nəcisin sıyığabənzər konsistensiyadan duru hala qədər dəyişilməsi, bəzi hallarda tərkibində selik, qan, irin qatışıqlarının, sona qədər həzm olunmamış qida qalıqlarının aşkarlanması ilə səciyyələnir. Bu tipli xəstəliklərin qoşunların döyüş qabiliyyətinə vurduğu ciddi ziyanı nəzərə alaraq, epidemik ocaqların məhdudlaşdırılması və ləğvi üzrə tədbirlərin müntəzəm surətdə və keyfiyyətli aparılması vacibdir.

Kəskin bağırsaq infeksiyalarının profilaktikası Qoşunların tibbi təminatının aktual vəzifələrindəndir. Təcrübə göstərir ki, infeksiya mənbəyinin vaxtında aşkarlanması və təcridi, eləcə də törədicinin ötürülmə yollarının qırılması istiqamətində kompleks tədbirlərin aparılması ilə xəstəliyin qarşısını almaq mümkündür. Əsas diqqət isə təbii ki, konkret epidemik şəraitdə maksimal effekt əldə edilməsinə yönəlmiş tədbirlərə verilməlidir.

Profilaktikanın əsasını epidemik prosesin inkişaf mexanizmi nəzərə alınmaqla, əks-epidemik yönümlü sanitar-gigiyenik tədbirlər təşkil edir. Dizenteriya və digər diarreya (ishal) əlamətli kəskin bağırsaq infeksiyaları ilə xəstələnmə səviyyəsi bir neçə səbəbdən asılıdır. Bu səbəblər içərisində hərbi şəhərciklərin, əsgər yeməkxanalarının sanitar-gigiyenik vəziyyəti, keyfiyyətli su təchizatı, qida obyektləri işçiləri tərəfindən şəxsi, ictimai və istehsalat gigiyenası qaydalarının gözlənilməsi, eləcə də hərbi qulluqçuların maddi-məişət təminatının qənaətbəxşliyi, həyat və məişətinə tibbi nəzarətin effektivliyi xüsusilə önəmlidir.

Ümumiyyətlə, hərbi hissələrdə kəskin bağırsaq infeksiyaları əleyhinə profilaktik tədbirlər kompleks şəklində həyata keçirilməlidir. Bu işdə komandanlıq, maddi-texniki təminat xidmətləri, tibb xidməti və bütövlükdə şəxsi heyətin yaxından iştirakı mütləqdir.

**Eyni zamanda, həmin kompleks tədbirlər il ərzində mütəmadi olaraq həyata keçirilməlidir. Bu tədbirlərə aşağıdakılar aiddir:**

*- yerli su mənbələrini və su təchizatı sistemini gigiyenik normativlərə və sanitar-texniki qaydalara uyğun saxlamaq, onların çirkləndirilməsinə yol verməmək;*

*- şəxsi heyətin istifadə etdiyi suyun keyfiyyətinə laborator nəzarət məqsədilə hər ay (göstəriş olarsa, hər həftə) su nümunələri götürüb tədqiq üçün laboratoriyaya göndərmək;*

*- səhra şəraitində su təchizatını düzgün təşkil etmək;*

*- şəxsi heyətin keyfiyyətli su ilə kafi miqdarda (içmək, xörək hazırlamaq və təsərrüfat-məişət məqsədilə istifadə etmək üçün) təmin olunması;*

*- hərbi şəhərciyin ərazisinin və ayaqyoluların təmiz saxlanılması, maye çirkabın, tullantıların, zibilin vaxtında zərərsizləşdirilməsi və daşınması;*

*- qida obyektlərinin zəruri inventar, qabqacaq, yuyucu vasitələrlə təminatı, ərzaq məhsullarının daşınması, saxlanılması, qidanın hazırlanması texnologiyası və şəxsi heyətə paylanmasında gigiyenik normativlərə və sanitariya qaydalarına riayət olunması, iaşə obyektlərində təmizlik və profilaktik dezinfeksiya tədbirlərinin aparılması;*

*- hərbi qulluqçuların, xüsusən də iaşə və su təchizatı obyektlərində çalışanların şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etmələri, bu məqsədlə bütün şəraitin yaradılması;*

*- yeməkxanada və mətbəxdə qabqacağın, avadanlığın, masaların və digər inventarların keyfiyyətli yuyulması;*

*- infeksiya mənbəyinin vaxtında aşkar etmək məqsədilə qida obyektlərində və su təchizatı sistemində çalışanların ilkin və dövri tibbi müayinələrə cəlb edilməsi;*

*- kəskin bağırsaq infeksiyaları keçirənlərin aşkar edilməsi və qeydiyyata götürülməsi;*

*- yoluxma ehtimalı olan hərbi qulluqçuların tibbi müşahidəyə götürülməsi və onların bakterioloji müayinəyə cəlb edilməsi;*

*- xəstələrin və xəstəliyə şübhəli şəxslərin erkən aktiv aşkarı (sorğu, baxış, termometriya, laborator müayinələr), onların vaxtında təcrid və qospitalizə edilmələri;*

*- dezinfeksiya və dezinseksiya tədbirlərinin aparılması.*

**DQBİ-nin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi - baş sanitar həkim t/x polkovnik-leytenantı A.Musayev**

## metodiki vəsait

# SƏHRA ÇIXIŞININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ METODİKASI

*(Əvvəli ötən saylarımızda)*

**Üçüncü mərhələdə (üçüncü-beşinci gün):**

**- bölmələrin (bölüyün) taktiki təlimə hazırlığına baxış keçirilir;**

**- bölüyün, taqımın döyüş vəhdətinin hazırlığı yoxlanılır və taborla (dəstə ilə) taktiki - sıra məşğələləri keçirilir;**

**- taktiki şərait çatdırılır və daimi yerləşmə məntəqəsinə (imkan olduqda) 10-15 km-lik marş qaçışı keçirilir;**

**- çıxış zamanı təlim tapşırıqları və normativlər yerinə yetirilir.**

### SƏHRA ÇIXIŞININ YEKUNUNUN KEÇİRİLMƏSİ

Səhra cıxışında istifadə olunan silah, sursat, maddi vəsaitlər və maddi texniki tədris bazasının mövcudluğu və sazlığı yoxlanılır. Yoxlamaların nəticələri barədə hərbi hissə komandirinə raportla məruzə edilir.

Səhra çıxışının gedişində hər bir məşğələ üzrə təlim yerlərində qiymətləndirmə aparılır və günün sonunda yekunlar keçirilir. Bu yekunlarda sonrakı görüləcək işlər barəsində tapşırıqlar verilir. Səhra çıxışı başa çatdıqdan sonra, dərəcələr üzrə yekunlar vurulur, bölmələrin döyüş vəhdətinin dərəcəsi müəyyən edilir, tabelikdə olanların fəaliyyətində müsbət və mənfi cəhətlər qeyd edilir, taqımlara, bölmələrə və taborlara qiymət verilir. Hərbi hissədə səhra çıxışının yekunu haqqında əmr hazırlanır.

Qoşunlarda səhra çıxışının keçirilməsi təcrübəsindən belə bir nəticəyə gəlmək olar ki, bölmələrin və şəxsi heyətin təlimində səhra çıxışının tətbiq edilməsi səhra təcrübəsinin və onun əsası olan Taktiki, Atəş, Mühəndis və Daxili Qoşunların Taktiki hazırlığının keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir; təlimi döyüş şəraitinə yaxınlaşdırır, şəxsi heyət möhkəmləndirilir, onda yüksək mənəvi və döyüş keyfiyyətlərinin yaranmasına təsir edir, zabit, gizir, MAXE, çavuş və əsgərlər səhra şəraitində fəaliyyət təcrübəsi qazanır.

Beləliklə, səhra çıxışı bölmələri müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarını yerinə yetirməyə hazırlamaq üçün imkan verir.

### SƏHRA ÇIXIŞINA HAZIRLIQ ZAMANI HAZIRLANAN SƏNƏDLƏRİN NÜMUNƏLƏRİ

**«T Ə S D İ Q   E D İ R Ə M»**

________ saylı hərbi hissə komandiri

________________________________

«____» ________ 20___ il .

**Hərbi hissənin şəxsi heyəti ilə keçiriləcək səhra çıxışına hazırlığının**

**TƏQVİM PLANI (variant)**

***I Təşkilatı tədbirlər***

1. Səhra çıxışı haqqında əmrin hazırlanması.
2. Təlim yerlərinin, marşrut yolunun kəşfiyyatının aparılması.
3. Səhra çıxışının planının hazırlanması.
4. Marşrut sxeminin və hərəkət üçün məlumatın hazırlanması.
5. «Səhra çıxışı zamanı qidalanmanın, tibbi və maddi-texniki təminatın, rabitənin təşkili» haqqında arxa cəbhənin, bölmələrin zabitləri ilə iclasın keçirilməsi.

**II METODİKİ TƏLİMAT MƏŞĞƏLƏLƏRİNİN HAZIRLANMASI VƏ KEÇİRİLMƏ QAYDASI**

1. Məşğələlərin keçirilməsi üçün zabitlərin şəxsi hazırlığının təşkil edilməsi.
2. Məşğələlərin keçirilməsi üçün konspektlərinin (planlarının) təsdiqlənməsi.
3. Səhra çıxışının təşkili və keçirilməsi üzrə metodiki - təlimat məşğələlərinin keçirilməsi:

*- xidmət rəisləri, idarə zabitləri, tabor və bölük komandirləri ilə;*
*- taqım komandirləri ilə;*
*- çavuş həyəti ilə.*

4. Düşmən rolunda çıxış edən şəxsi heyətin təlimatlandırılması.

**III BÖLMƏLƏRİN SƏHRA ÇIXIŞINA HAZIRLIĞI**

1. Silah, döyüş texnikası və imitasiya vasitələrilə davranma zamanı təhlükəsizlik qaydaları üzrə məşğələ keçirib məqbulları qəbul etmək:

*- zabitlərlə;*
*- çavuşlarla;*
*- əsgərlərlə.*

2.Yoluxucu xəstəliklərin profilaktikası, zədələnmələrin qarşısının alınması məqsədilə əlavə məşğələ keçirmək.

3. Döyüş sursatlarının və imitasiya vasitələrinin alınması üçün sifarişnamələr tərtib etmək.

**IV MADDİ –TEXNİKİ TƏDRİS BAZASININ VƏ SƏHRA ÇIXIŞI RAYONUNUN HAZIRLANMASI**

1. Məşğələlərin keçirilməsi üçün mühəndis işlərinin aparılması.
2. MTTB-nin hazırlanmasının təşkil edilməsi.
3.Təsərrüfat təminatı və qidalanma məntəqələrinin hazırlanması.
4. Səyyar tibbi məntəqənin yerinin təyin edilməsi, şəxsi heyətin tibbi avadanlıqla təmin olunması.
5. Kolonda və məşğələ yerlərində daimi yerləşmə məntəqəsi ilə rabitə əlaqəsinin təmin olunması.

**V NƏZARƏT VƏ KÖMƏKLİK GÖSTƏRMƏK**

1. Bölüklərin və MTTB-nin hazırlığına baxışın keçirilməsi.
2. Səhra çıxışının keçirilməsinə hazırlıq barədə məruzə.

_______ saylı hərbi hissə komandirinin

I müavini - Qərargah rəisi

________________________________

________________________________

«____» _________ 20___ il.

**DQBİ-nin Qərargahında Döyüş hazırlığı şöbəsi**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 12 (454)
26 iyun
2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## 26 İYUN - SİLAHLI QÜVVƏLƏR GÜNÜ

# BU GÜN AZƏRBAYCAN ORDUSU QARŞIDA DURAN BÜTÜN VƏZİFƏLƏRİ ŞƏRƏFLƏ YERİNƏ YETİRMƏYƏ HAZIRDIR!

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı*

***Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra qarşıda duran əsas məsələlərdən biri kimi, yeni şəraitdə iqtisadi inkişafın təmin edilməsinə diqqəti artırdı. Güclü iqtisadiyyat, eyni zamanda qüdrətli Azərbaycan Ordusunun yaranmasına təkan verdi. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Silahlı Qüvvələri bu gün müasir standartlara cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir.***

Məlum olduğu kimi, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri də Milli Ordunun təşkili idi. Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə ordu quruculuğunun əsası qoyulsa da, Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayanmış, Ulu Öndər Heydər Əliyevin 1969 - cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. Ümummilli Liderin cəsarətli addımları sayəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi laqeyd yanaşa bilməzdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyevin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, C.Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrilmişdir.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi durumla üzləşmişdi. Keçmiş Ali Sovet Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul etsə də, müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verilmiş, Azərbaycan Ordusunun yaranması sadəcə kağız üzərində qalmışdı. Ölkədəki ağır vəziyyət və iqtidarda olanların yaratdıqları xaos, özbaşınalıq, hərc-mərclik müstəqilliyimizi təhlükə ilə üz-üzə qoymuşdu. Bundan istifadə edən düşmən torpaqlarımızın işğalını davam etdirir, ayrı-ayrı silahlı birləşmələr müxtəlif qrupların maraqlarına xidmət edirdilər. 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmış, 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun güclənməsi daha da sürətlənmiş, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılmışdır.

Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən Ulu Öndər tez-tez səngərlərdə olur, əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atırdı. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz Ümummilli Lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran Respublika Prezidenti cənab İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur.

Erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək və bu məqsədlə nə lazımdır Azərbaycan dövləti edir.

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Digər tərəfdən, Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsi ilə bağlı görülən işlər nəticə etibarilə orduda aparılan geniş quruculuq işlərinin nəticəsidir.

**Bir sözlə, bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur!**







## *Rəy sorğusunun nəticələri:* AZƏRBAYCAN ƏHALİSİ ÖLKƏ PREZİDENTİNƏ ETİBAR EDİR

**Azərbaycan əhalisinin əksəriyyəti ölkə Prezidenti İlham Əliyevə etibar edir. Bunu "Rəy" Monitorinq Mərkəzinin iyunun əvvəlində ölkə üzrə keçirdiyi ictimai rəy sorğusunun nəticələri sübut edir.**

Cavablar göstərir ki, əgər prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, səsvermə məntəqələrinə yollanacaq respondentlərin tam əksəriyyəti, yəni 87,3 faizi öz səslərini hazırkı dövlət başçısı İlham Əliyevə verərdi.

Respondentlərin 83 faizə yaxını "İlham Əliyev sizin kimi insanların maraqlarına cavab verirmi?" sualına "bəli, cavab verir" (tam və ya qismən), 5 faizi "xeyr, cavab vermir", 4 faizi isə "əsasən cavab vermir" deyə bildirib. Qalan 8 faiz respondent bu sualı cavablandırmaqda çətinlik çəkib.

Sorğu, həmçinin göstərib ki, prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, rəyi soruşulanların mütləq əksəriyyəti (60 faiz) birmənalı olaraq səsverməyə qatılardı. Daha 21 faiz "yəqin ki, iştirak edərdim" cavab variantını seçib. Səsverməyə getməyəcəyini deyən respondentlər isə 12 faiz təşkil edib. Qalan 7 faiz cavab verməkdə çətinlik çəkib.

Hesabat 2015-ci il iyunun 13-15-də keçirilmiş "omnibus" tipli ictimai rəy sorğusunun nəticələri əsasında hazırlanıb. Yaşayış yeri üzrə üzbəüz müsahibə yolu ilə keçirilən sorğuda yaşı 18 və yuxarı olan 1500 nəfər iştirak edib. Nisbi xəta 2,7 faizdir.

## BAKI 2015-ci İLDƏ AVROPANIN 10 ƏN MARAQLI MƏKANININ SİYAHISINA DÜŞÜB

Dünyanın görməli yerləri üzrə soraq kitabçaları buraxılışı üzrə ixtisaslaşan "Lonely planet" nəşriyyatı Avropanın ən maraqlı məkanlarının siyahısını təqdim edib. Keçmiş Sovet İttifaqı məkanındakı ölkələrdən bu reytinqə daxil edilmiş yeganə şəhər Azərbaycanın paytaxtı Bakıdır.

**1.** Akyureyri (İslandiya)
**2.** Leypsiq (Almaniya)
**3.** Azor adaları (Portuqaliya)
**4.** Malaqa (İspaniya)
**5.** Belqrad (Serbiya)
**6.** Pyemont (İtaliya)
**7.** Bakı (Azərbaycan)
**8.** Amsterdam (Niderland)
**9.** Tromsyö (Norveç)
**10.** Portu (Portuqaliya)

Ən iri nəşriyyatlardan biri hesab olunan "Lonely planet" jurnalının indiyə qədər dünyanın 8 dilində 500-dən çox soraq kitabı və danışıq kitabçası nəşr edilib. Hər il buraxılan çap məmulatının ümumi tirajı 6 milyon nüsxəyə çatır.

## I AVROPA OYUNLARI HAQQINDA SƏNƏDLİ FİLM ÇƏKİLİR

Rusiya kinematoqrafçılarının iştirakı ilə I Avropa Oyunları haqqında "Bakı-Avropa Oyunları 2015" adlı tammetrajlı sənədli film çəkilir. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, Avropa Oyunları ilə yanaşı, filmdə Azərbaycanda qədim tarixi ənənələrə malik olan milli idman növlərinin yaranma tarixindən, inkişafından, xalqın həyat və məişətindəki mühüm yerindən də bəhs ediləcək.

Dövlət sifarişi ilə çəkilən filmin ssenari müəllifi Sergey Şaçin və rejissoru Natalya Zavoznenko idman kinosu mövzusunda bir neçə beynəlxalq layihələrin müəllifləridirlər.

Filmin operatorları Asif Qəhrəmanov, Allahverdi Şahqulubəyov, İvan Germanov, Aleksandr Koçubeydir.

